QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## "Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi"




3

# "Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir!"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda 2-ci yaşayış kompleksinin və Xankəndi şəhərində Zəfər parkının açılışlarında iştirak ediblər




2

SƏS

№ 238 (7406)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

25 dekabr 2025-ci il.
Qiymәti 60 qәpik

# Türk dünyasını birləşdirən yol




7

## Özəl məktəblərdə təhsil haqları niyə fərqlənir?



8

## Endirimli "geyindirim"




5

## 2026-cı il - "Şəhərsalma və Memarlıq İli"




6

## Ronaldo bu adada 8 milyon avroya iki villa aldı...



8

## Güclü dövlətin qarantı nədir?



7

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər. Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kompleksdə yaradılmış şərait barədə məlumat verdi.**

# “Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir!”

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda 2-ci yaşayış kompleksinin və Xankəndi şəhərində Zəfər parkının açılışlarında iştirak ediblər



















Bildirildi ki, ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla ümumilikdə 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, uzunluğu 5 kilometrə yaxın olan daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları, velosiped zolağı, yerüstü və 1218 yerlik yeraltı avtomobil dayanacaqları yaradılıb.

Qeyd edək ki, dövlətimizin başçısı bu kompleksin təməlini 2023-cü ildə qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin fevralında kompleksdə görülən tikinti işlərinin gedişi ilə tanış olublar.

”Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir. Üç kənddə insanlar yaşayır. Mən bu kəndlərin yenidən istifadəyə verilməsi mərasimlərində iştirak etmişəm - Kəngərli, Sarıcalı, Xıdırlı.” Bu barədə Prezident İlham Əliyev Ağdam şəhərinə köçən sakinlərlə görüşündə bildirib. Orada indi bir neçə min insan yaşadığını və bu köç prosesinin davam etdiyini söyləyən dövlətimizin başçısı vurğulayıb: ”İşğal dövründə Ağdam demək olar ki, urbisidə məruz qalmışdır. Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılmışdır. Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi.

Bu gün Ağdam şəhərində artıq insanlar yerləşir və bu yaşayış məhəlləsindəki 1268 mənzildə ağdamlılar yerləşəcək. Düzdür, indi Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və bu sülh prosesinin təşəbbüskarı da biz olmuşuq. Onu da hamı bilir və bilməlidir. Birinci təklifi biz vermişik, sülh müqaviləsinin mətninin müəllifi də bizik və oraya salınan bütün maddələrin də müəllifi bizik.”

Dövlətimizin başçısı vurğulayıb: ”Ancaq biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq”.

Qarabağın və Şərqi Zəngəzurun bərpasında əsas prinsip müasir standartlara uyğun məntəqələrin qurulması ilə keçmiş məcburi köçkünlərin rahat yaşayışını təmin etməkdən ibarətdir. Bununla yanaşı, sosial infrastrukturun yaradılması xüsusilə diqqət mərkəzində saxlanılır. İşğaldan azad edilmiş ərazilərimizdə müasir məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir, məşğulluğun təmin olunması üçün sənaye parkları, müxtəlif istehsal müəssisələri, xidmət sahələri yaradılır. Bütün bu tədbirlər Qarabağın və Şərqi Zəngəzurun qısa müddətdə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və bölgənin sürətli inkişafına xidmət edir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Xankəndi şəhərində Zəfər parkının açılışında da iştirak ediblər. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma parkda yaradılmış şərait barədə məlumat verdi.

Ümumi sahəsi 9 hektar olan Zəfər parkının təməli bu ilin fevralında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı iyulda burada görülən işlərlə tanış olub.

Bildirilib ki, parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Bina 10 mərtəbədən və terrasdan ibarətdir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub. Doqquzuncu mərtəbədə ”Zəfər qalereyası” sərgi-nümayiş zalı yaradılıb.

Parkın ərazisində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı mövcud ağacların qorunmasına xüsusi diqqət yetirilib. Ümumilikdə parka 500-dən çox ağac və 11 mindən artıq kol və gül əkilib.

Qeyd edək ki, Xankəndi şəhərində Zəfər parkının yaradılması bir neçə mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu layihə Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir. Eyni zamanda, park Xankəndi sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edəcək. Bundan başqa, belə istirahət məkanlarının yaradılması işğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı bərpa-quruculuq işlərinin uğurla davam etdiyini göstərir.

# "Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi"

***Dekabrın 24-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən Nəsimi rayon təşkilatı ilə birgə "Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi" mövzusunda tədbir keçirilib.***

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu əlamətdar gündə keçirilən tədbirin mövzusunun çağdaş tariximizin möhtəşəm dövrü ilə həmahəng olduğunu bildirib: "Çünki günümüzün reallığı budur ki, dünyada bir çox ölkələr mühüm resurslara - əlverişli coğrafi mövqeyə, təbii sərvətlərə, böyük iqtisadi və demoqrafik potensiala sahib olsalar da, öz siyasətlərini milli maraqlara uyğun həyata keçirə bilmirlər. Müasir Azərbaycanın nümunəsi isə təsdiqləyir ki, məhz zəngin dövlətçilik təcrübəsinə, xalqın birmənalı və qətiyyətli dəstəyinə malik lideri olan ölkələr milli mənafelərə əsaslanan siyasət vasitəsilə davamlı inkişafı təmin edir və beynəlxalq aləmdə nüfuz sahibi olurlar. Çoxəsrlik dövlətçilik tarixinə malik Azərbaycan mürəkkəb sosial-iqtisadi və geosiyasi vəziyyətə baxmayaraq, müstəqilliyin bərpasından sonra yüksəlişini təmin edə, dünyada nüfuzlu dövlət kimi tanına bilmişdir. Bu, birmənalı olaraq Heydər Əliyev dühası və Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü fəaliyyəti sayəsində mümkün olmuşdur. Ümumxalq etimadını doğruldan dahi liderlərin uğurlu siyasəti nəticəsində sabitlik və tərəqqi yoluna qədəm qoymuş Azərbaycanın adı bu gün qüdrətli və qalib dövlətlər sırasında çəkilir".












Tahir Budaqovun sözlərinə görə, inkaredilməz həqiqətdir ki, müdrik dövlət xadimi Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində Azərbaycan naminə çalışaraq xalqın işıqlı gələcəyini təmin edən əvəzsiz işlər görmüşdür: "1993-cü ildə xalqın israrlı tələbi ilə respublikamızda yenidən hakimiyyətə qayıdan Ulu Öndərin dövrün çağırışlarına cavab verən siyasəti nəticəsində milli birliyin, sabitlik və təhlükəsizliyin təmini, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması, ikitərəfli münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi və digər mühüm faktorlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini və beynəlxalq münasibətlər sistemində rolunun artmasını təmin etmişdir. Dahi şəxsiyyətin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin qarşısında duran ali məqsədlərə çatmaq üçün milli qanunvericiliyimizin əsaslarını müəyyən etmişdir. Bir sözlə, müstəqillik dövründə Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1993-2003-cü illər əldə etdiyimiz möhtəşəm qələbələrin təmini üçün möhkəm təməllərin yaradılmasını şərtləndirmişdir".

YAP Sədrinin müavini bildirib ki, Ulu Öndərin xalqımız qarşısında xidmətlərindən bəhs edərkən bu kontekstdə müasir dövlətçilik tariximizdə müstəsna yerə və rola malik - taleyüklü önəm daşıyan siyasi varisliyin təmin olunmasını xüsusi qeyd etmək lazımdır: "Azərbaycan xalqının böyük etimadı əsasında ölkə Prezidenti seçilərək dövlət başçısı kimi fəaliyyətə başladığı zaman öz missiyasını "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" - tezisi ilə ifadə edən cənab İlham Əliyev Heydər Əliyev yoluna sadiqliyini sübuta yetirmişdir. Bu gün inamla və iftixarla söyləyirik ki, Ulu Öndərin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda addımlayan müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirmişdir. Dövlət başçısının qeyd etdiyi kimi: "Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

Tahir Budaqov əlavə edib ki, Prezident İlham Əliyevin tərəqqi və Zəfərə hədəflənən məqsədyönlü siyasəti sayəsində iqtisadi gücü artan, modern ordu quruculuğuna nail olan, regionda lider dövlətə çevrilən və qlobal təsir imkanları genişlənən Azərbaycanın bütün cəbhələrdə - hərb meydanında, beynəlxalq informasiya platformasında və diplomatiya müstəvisində möhtəşəm qələbə qazanaraq tarixi ədalətin - ərazi bütövlüyü və mütləq suverenliyin bərpasına müvəffəq olması xalqımızın şərəfli dövlətçilik tarixinin ən parlaq səhifəsidir: "Azərbaycanın son illərdə əldə etdiyi tarixi nailiyyətlər fonunda nəinki regionda, daha geniş coğrafiyada təşəkkül tapmış yeni reallıqlar ictimai-siyasi sabitliyin və milli birliyin möhkəmləndirilməsini, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını, ölkənin beynəlxalq mövqeyinin daha da gücləndirilməsini zəruri edir. Dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası da yeni dövrün çağırışlarından irəli gələrək suveren Azərbaycanın milli maraqlarının təmini üçün öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək əzmindədir. Ulu Öndərimizin tükənməz siyasi irsinə sonsuz ehtiram və sədaqət nümayiş etdirməklə möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycan naminə çalışmaq hamımızın ümdə vəzifəsidir. Fürsətdən istifadə edərək hər birimizin adından partiyamızın Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi doğum günü münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, xalqımızın rifahı və ölkəmizin firavanlığı naminə şərəfli fəaliyyətində davamlı uğurlar arzulayıram. Şübhəsiz ki, dövlət başçısının rəhbərliyi ilə görülən işlər ölkəmizə bundan sonra da yeni müvəffəqiyyətlər qazandıracaq, tarixi dəyərlərlə müasir reallıqların vəhdətinə əsaslanan, azərbaycançılıq ideologiyasına və dövlətçilik ideyasına söykənən Heydər Əliyev siyasəti Azərbaycana növbəti qələbələri bəxş edəcəkdir. Yaşasın Heydər Əliyev dühasının xalqımıza ən böyük mənəvi-siyasi mirası olan müstəqil Azərbaycan dövləti! Eşq olsun Azərbaycanı Zəfər zirvəsinə yüksəldən Müzəffər Liderimiz cənab İlham Əliyevə!".

Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla çıxışında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 2003-cü ildə cənab İlham Əliyev haqqında "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir.

*Ardı Səh. 4*

Əvvəli Səh. 3

# "Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi"

Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikirlərini xatırladıb. Beş il əvvəl Müzəffər Lider İlham Əliyevin "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir!" sözlərini fəxarətlə ifadə etdiyini vurğulayan Kamal Abdulla bildirib ki, Azərbaycan xalqının belə böyük bir sərkərdə və Prezidentinin olması qürurvericidir: "Biz ordumuzla, qalib əsgərlərimizlə, şəhidlərimizlə, qazilərimizlə, arxa cəbhədə bir yumruq kimi Azərbaycanın adını yüksəldən vətəndaşlarımızla fəxr edirik".

Rektor vurğulayıb ki, bütün dünya Azərbaycan xalqının mədəniyyəti, intellektual səviyyəsi, döyüş bacarığı və diplomatik gücünə şahid oldu: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına tarix boyu göstərilən xidmətlərdən ən möhtəşəmini həyata keçirdi. Millətimiz bunu heç zaman unutmayacaq və cənab Prezidentin ideallarını Vətən bayrağı kimi daim uca tutacaqdır. Möhtərəm Prezidentimiz Vətənin işıqlı gələcəyə gedən yolunda cəsur əsgər, müzəffər sərkərdə, ləyaqətli Prezident, vəfalı oğul və qədirbilən ata kimi Zəfərdən-Zəfərə addımladı, bizi də məğrur, başıdik, alnıaçıq insanlar kimi arxasınca apardı. Prezident İlham Əliyevlə birlikdə bu yolu getmək qürurlu və şərəflidir".













"Prezident İlham Əliyev daim qeyd edir ki, multikulturalizm ölkəmizdə özünəməxsus həyat tərzinə çevrilib. Müasir dövrdə Heydər Əliyev idealları etibarlı, münbit zəmində inkişaf etdirilir. Bunun müəllifi Ümummilli Liderin siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti, qalib Ali Baş Komandan İlham Əliyevdir. Ulu Öndərin ideyalarını və irsini mükəmməl mənimsəyən, onların həyata keçirilməsində yeni uğurlar qazanan Prezident İlham Əliyev çağdaş zamanımızda multikultural dəyərlərin himayəçisi kimi çıxış edir. Azsaylı xalqların, dini konfessiyaların hüquqlarının qorunmasında, mədəni müxtəlifliyin saxlanılmasında, Azərbaycanın multikultural həqiqətlərinin qlobal miqyasda təqdim olunmasında Prezident İlham Əliyevin cahanşümul fəaliyyəti göz önündədir", - deyə Xalq yazıçısı əlavə edib.



Şəhid Ruslan Cəfərovun anası Alimə Cəfərova belə bir mötəbər tədbirdə çıxış etməyin onun üçün həm şərəf, həm də böyük məsuliyyət olduğunu bildirib: "Azərbaycanın bugünkü qürurlu, suveren və qalib ölkə reallığı təsadüfi deyil. Bu yolun təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər bizə təkcə müstəqil dövlət yox, mütərəqqi Konstitusiya, milli kimlik və sarsılmaz dövlətçilik ideologiyası miras qoyub. O Konstitusiya ki, bu gün hər bir Azərbaycan vətəndaşının hüququnun, ləyaqətinin və azadlığının təminatıdır. Bir ana olaraq deyirəm ki, övladım Vətən naminə, Heydər Əliyevin qurduğu dövlətin, İlham Əliyevin qoruduğu suverenliyin uğrunda canından keçdi. Bu, hər bir şəhid anasının ağrısını qürura çevirən ən böyük həqiqətdir".

Alimə Cəfərova vurğulayıb ki, Heydər Əliyev ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfəri təmin etdi: "44 günlük Vətən müharibəsi və bir günlük antiterror əməliyyatı göstərdi ki, ölkəmizin Konstitusiyası real həyatda - döyüş meydanında, siyasi masada, beynəlxalq hüquqda öz sözünü deyir. Fəxrlə ifadə edirik ki, şəhidlərimizin qanı yerdə qalmadı. Onların qanı müstəqilliyimizin möhürü, suverenliyimizin imzası oldu. Bu gün üçrəngli bayrağımız bütün ərazilərimizdə dalğalanırsa, bu, Heydər Əliyev uzaqgörənliyinin və İlham Əliyev qətiyyətinin nəticəsidir. "Konstitusiya və Suverenlik İli" bizim üçün təkcə təqvim ili deyil. Bu il xalqımız üçün milli qürur ilidir. Dövlətimizin bizə göstərdiyi diqqət və qayğı sübut edir ki, Azərbaycan öz qəhrəmanlarını unutmur. Oğlum Ruslan Cəfərov qalib xalqın şəhididir. İnanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da güclənəcək, şəhidlərimizin ruhu daim şad olacaq. Dövlətimizin başçısına bir şəhid anası kimi təşəkkür edirəm. Yaşasın müstəqil, suveren və qalib Azərbaycan!".



Daha sonra çıxış edən Vətən müharibəsi iştirakçısı, qazi Rüfət Salmanov deyib: "Bu gün bu tribunada təkcə bir qazi kimi yox, həm də Azərbaycan Ordusunun bir əsgəri, qalib xalqın nümayəndəsi olaraq çıxış etmək mənim üçün böyük şərəfdir. Milli Konstitusiyadan mütləq suverenliyə aparan yolun canlı şahidi və iştirakçısı olmaq taleyin bizə verdiyi böyük məsuliyyətdir. Biz döyüşə gedəndə bir amalımız vardı: dövlətimizin suverenliyini tam bərpa etmək. Biz bilirdik ki, arxamızda Ulu Öndər Heydər Əliyevin qurduğu güclü dövlət, önümüzdə isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi dayanır. Bu inam bizi məğlubedilməz etdi".

R.Salmanov bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır: "O, Konstitusiya ilə xalq-dövlət-ordu birliyinin əsasını qoydu. Biz Vətən müharibəsində həmin Konstitusiyanın canlı qüvvəsi olduq. Döyüş meydanında hər addımda hiss edirdik ki, bu mübarizə haqq işidir, beynəlxalq hüquqa, milli iradəyə və Konstitusiyaya söykənir. Prezident İlham Əliyev bu irsi zirvəyə daşıdı. Ali Baş Komandan kimi verdiyi hər qərar, göstərdiyi qətiyyət orduda ruh yüksəkliyi yaratdı. Biz bilirdik ki, bu savaşın sonunda mütləq qələbə olacaq. Çünki bu, sadəcə hərbi əməliyyat deyil, suverenlik mübarizəsi idi. Qazi kimi fəxrlə deyirəm ki, Azərbaycan əsgəri yalnız əzəli torpaqları üçün yox, həm də dövlət, bayraq, Konstitusiya üçün döyüşdü. Bu gün Azərbaycanın tam suverenliyi reallıqdırsa, bu, Ümummilli Lider Heydər Əliyev ideyalarının Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilməsinin nəticəsidir. "Konstitusiya və Suverenlik İli" bizim üçün döyüş yolunun siyasi davamıdır. Bu fakt sübut edir ki, Azərbaycan artıq öz taleyinin tam sahibidir. Ordusu güclü, xalqı həmrəy, Lideri qətiyyətli olan dövlət heç vaxt yolundan dönməz".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

# Yaşıl rəng çox yaraşar bu şəhərə...

***Çox az yaşıllığı var Bakımızın. Betonlaşdırıblar bu şəhəri sahibkarlar, arxitektorlar, inşaatçılar, mühəndislər, xüsusilə də şirkət sahibləri. Fikirləri qalıb hündür mərtəbəli binaların təcili tikilməsində ki, satışını həyata keçirələr, mənfəətlənələr. Bu şəhərin qoynuna gündən-günə hündürmərtəbəli binalarla "beton naxışlar" vurublar. O qədər "naxış" ki, yan-yana, nəfəs-nəfəsə binalar sanki bir-birinin üstünə yıxılacaqlar...***

Günəşə doğru yol alır bu binalar. Günəşin də gücü çatmır dan yerindən boylanıb bu şəhəri işığına, istisinə bürüməyə. Qoymur göydələnlər, çoxmərtəbələr, arxasında, qarşısında gizlədir Günəşi. Nəfəs-nəfəsə binalar pəncərələrimizdən əlimizi uzatsaq qonşunun pəncərəsinə çatacaq dərəcədədir. Kəsiblər insanların pəncərəsinin qarşısını bu binaları inşa edənlər. Təmiz havadan, gün işığından məhrum ediblər insanları. Pəncərələrindən yalnız betonlara baxmağı nəsib ediblər bu şəhərin sakinlərinə...

Nə bitir bu betonlaşma, nə də tükənir. Yağışdan sonrakı göbələklər kimi artır hər gün, hər saat. Betonlaşır bu şəhər, rəngli-rəngli betonlardan ibarət olur. Sağımız beton, solumuz beton, yolumuz beton, qarşıda beton, döngədə beton, nə qədər beton axı...

Bu şirkətlər tikintini planlaşdırandaağacları kütləvi şəkildə qırıb, yerində bina ucaltmağa başlayanda o layihələrə baxanlar olubsa, hər birində abadlıq, yaşıllaşdırma ilə bağlı hissəsi də görüblər. Lakin beton mərtəbələr səmaya yüksəldikcə, yaşıllıqlar o mərtəbələrdən çox-çox aşağılarda unudulmuş rəngə, yada düşməyən işə çevrilir. Bir təhər, alayarımçıq istifadəyə verilən binalarda şirkət sahiblərini tapa bilmirsən ki, sözünü deyəsən. Yoxa çıxırlar, gözə görünmürlər. Axı haqsızdırlar, işləri yarımçıqdır. Əksər çoxmərtəbəli binaların layihəsi yarımçıqdır, sakinlər narazıdır. Həyətlərdə nə oturmağa bir oturacaq qoyulub, nə uşaqların əylənməsi üçün qurğu. Nə də bir yaşıllıq salınıb.

Son illərdə Memarlıq və Arxitektura Komitəsi tərəfindən qaydaların hazırlanmasına və ümumi tikintinin 25 faizindən az olmayaraq yaşıllıqların olması tələbinə baxmayaraq sahibkarlar 1 santimetrə də qənaət edərək ondan gəlir qazanmaq uğrunda mübarizə aparırlar. Onlar yeni binalar inşa etməyə, yeni mənfəətlər ardınca gedirlər. Arxada qalanlar isə yarımçıq işləri özləri tamamlamalıdır. Onlar belə düşünürlər.



İnsafən parklarımız güllü-çiçəklidir. Lakin insanlar vaxt tapa bilirlərmi o gözəllikləri görməyə? Səhərdən axşamadək işdə olan insan parklardakı gözəlliklərdən də məhrum olur. Beləliklə, yalnız betonlara baxmaq məcburiyyətində qalır.

Düşünürsən ki, axı niyə insanları yaşıllıqlardan məhrum edirlər. Kimlərinsə mənfəəti xətrinə minlərlə insan nə üçün sadəcə betonlar arasında yaşamalıdır. Axı onların hüquqları pozulur. Olmaz ki, hər kəs işinə məsuliyyətlə yanaşa? İnşa etdiyi binaların yaşıllığı ilə bağlı layihələrdə göstərilənlərə riayət edə? Axı belə olarsa, heç betonlar da gözə gəlməz. Onların qarşısını yaşıllıqlar kəsər, rənginə rəng qatar. Məsələn, baxırsan ki, yeni tikili binadır, yolboyu uzatdıqca uzadıb aparılıb haradək. Qarşısında da səki, səkinin kənarları boş. Bu səki boyu ağaclar əkilsə, nə olar görəsən? Və yaxud da yeni binaların betonlaşmış həyətlərinə ağaclar əkilsə, bunun nəyi pis olar ki? İnsanların gözü gözəllik görər, həm də təmiz hava udarlar.

Yaşıllıq nə qədər zəngin olarsa, oksigen də bir o qədər bol olar. Biz nə edirik? Yaşıllığı ləğv edib, üzərində binalar tikir, hər tərəfi betonlarla əhatə edirik və özümüz üçün real ölüm hazırlayırıq. Bir hündürmərtəbəli binanın ətrafında ən azından 5-10 ağac yoxdursa, həmin binalarda yaşayan yüzlərlə insanın sağlamlığından söhbət gedə bilərmi? Lakin bəzən belə binaların ətrafında bir ağac belə olmur. Sanki gözlərimiz bu betonlaşmaya öyrənib, yaşıl rəngi ağlımıza belə gətirmirik. Səsimizi qaldırmırıq, həyəcan təbilini çalmırıq, özümüz bir yana, gələcək nəsillərimiz üçün təhlükəni uzaqlaşdırmırıq. Sadəcə bu, belə də olmalıdır kimi həyatımıza davam edirik. Sahibkarlar da bundan yetərincə istifadə edirlər.

Bu şəhərə niyə yağış yağmır, düşünən varmı? Çünki bu şəhər yaşıllıq qıtlığı yaşayır. Yağışın çox yağma səbəbi yaşıllıqlardır, onların yaratdığı rütubət, buxarlanmadır. Yağışsız, yaşıllıqsız, küləkli şəhərdə insan sağlamlığı yalnız təhlükə qarşısında ola bilər.

Rayonlarımızda hər kəs Bakıdan giley edir, deyir ki, əşi, orada nəfəs almağa hava tapa bilmirsən. Bunun günahı Bakıda deyil, günah yaşıllıqlara qarşı çıxanlardadır. Təmiz havanı, bol oksigeni, yağışı, sərinliyi yaşıllıqlar yaradır. Bu şəhərdə yaşayan insanların bəxti onda gətirib ki, burada dəniz var, yoxsa bu qədər yaşıllıq qıtlığı ilə hansı problemlərlə üzləşərdilər, Allah bilir. Elə yetərincə üzləşirik də. İnsanların bronxial astma, ürək çatışmazlığı, çiyər problemləri bu şəhərin yaşıla aclığındandır. Belə gedərsə, qarşıda insanları nələr gözləyir, bu barədə düşünmək lazımdır. Nə qədər ki, gec deyil, ağac əkməyə başlamalıyıq.

Həqiqətən bu şəhər çox gözəldir, müasirdir, inkişaf edir hər gün. Bu şəhər adi şəhər deyil, özünəməxsuslıqları ilə seçilən şəhərdir. Qədimdir, həm də müasirdir. Dünəni yaşadılan, bu günü gözoxşayan, heyrətamiz mənzərəli, gözəlliyi ilə fəxr etdiyimiz şəhərdir. Bu şəhər rəngli şəhərdir. Son illərin möhtəşəm tikililəri bu rənglər palitrasını daha zənginləşdirib. Dövlət Bayrağı Meydanı, Heydər Əliyev Mərkəzi, Alov Qülləri, Beynəlxalq Muğam Mərkəzi, Milli Gimnastika Arenası, Milli Olimpiya Stadionu, Su İdman Mərkəzi və saydıqca saya biləcəyimiz onlarla bina füsunkarlığıdır bu şəhərin. Rəngləridir bu şəhərin. Bu rənglərin içərisində isə yalnız yaşıl azlıq təşkil edir. Hansı ki, yaşıl bu rənglərin hər biri ilə gözəl harmoniya təşkil edər, həm gözəlliyə, həm də sağlamlığa xidmət edə bilər.

Demirik ki, ağaclar əkilmir. Əkilir, aksiyalar, iməciliklər keçirilir, bağlar salınır, lakin yaşıl rəng azlıq edir bu şəhərə. Çünki bu şəhər yaşıllaşmaqdan çox betonlaşır. Biz bu cür möhtəşəm binaları inşa edənləriksə, göydələnləri buludlara çatdıranlarıqsa, nədir bizim əlimizdə yaşıl rəngi artırmaq?..

Bu gözəl şəhər yaşıl rəngə ehtiyaclıdır. Onun hər rəngdə libası var, yaşılın da istəyir. Gəlin bu doğma, əziz şəhərimizin istəyi naminə onu yaşıl rəngə qərq edək. Bu şəhəri daha da betonlaşmağa qoymayaq. Çünki ona yaşıl rəng çox yaraşar...

***Mətanət Məmmədova***

## FELYETON

# Endirimli "geyindirim"

***Son zamanlar ticarət və iaşə obyektlərində müxtəlif faizli güzəşti nəzərdə tutan endirim kampaniyalarının keçirildiyi haqda elanların sayı kəskin şəkildə artıb. Mağazaların vitrinlərində, iri reklam şitlərində satış qiymətlərinin xeyli dərəcədə aşağı salınması barədə məlumat verilir. Bu proses bəzi mağazalarda ilboyu davam edir.***

Aydındır ki, bu kampaniyanın reallaşdırılmasında məqsəd yalnız satılacaq mal və məhsullara tələbatı artırmaq üçün onların reklamının təşkili, satılmayan malları baha qiymətə alıcılara sırımaqdır.

Bundan başqa, istifadəyə yararsız və istismar müddəti bitmiş məhsulların satış dövriyyəsinə buraxılması üçün də bəzi ticarət obyektlərinin məlum "endirim güzəştləri"ndən istifadə etdiyi heç kimə sirr deyil.

Bütün dünyadan fərqli olaraq bizdə insanlara, əsasən, geyiminə görə münasibət göstərirlər. Bu səbəbdən də Azərbaycan əhalisi üçün zəruri mallar kateqoriyasında geyim, hətta qidadan da öndə yer alır.

Ən ucuz və keyfiyyətsiz ərzaqla qidalanan, amma bahalı və dəbdə olan geyimə üstünlük verən insanlar bizdə kifayət qədər çoxdur. Bu isə, ölkədə paltar bazarının çiçəklənməsinə böyük imkanlar yaradıb. Belə çiçəklənməni əlbəttə, yaxşı hal hesab etmək olardı, bir şərtlə ki, bu, paltar bazarının keyfiyyətsiz məhsullarla doldurulması və istehlakçıların aldadılması ilə müşayiət olunmasın.

Xarici ölkələrdə bir ilin geyim kolleksiyası növbəti ildə satılmır. Çünki mövsümün sonuna doğru geyim kolleksiyalarında endirim kampaniyaları elan olunur və bu malların, demək olar ki, hamısı satılır. Bizdə isə, əksər hallarda satılmamış mallar növbəti ilə saxlanılır və guya yeni dəbə minmiş paltar kimi yenidən satışa çıxarılır.




Bu gün Bakıdakı mağazaların əksəriyyətinin vitrinlərində yazılmış lövhələrdə 30, 50, hətta 70 faizlik endirim elan edilib. Lakin mallara baxanda məlum olur ki, bu endirim yalnız əhəmiyyətsiz, satılmayan, keyfiyyətsiz mallara aiddir. Üstəlik, qiymətlər hər hansı bir ucuzlaşma edildiyini düşünməyə əsas vermir.

Belə çıxır ki, endirim edilənədək hər hansı bir paltar 100 manata satılırmış. Geyimlərin keyfiyyətindən və tikiliş səviyyəsindən azca anlamaq kifayət edir ki, belə paltarların real dəyərinin maksimum 20 manat olduğunu başa düşəsən. Belədə mağaza, məsələn, 30 manata satmaqdan məmnun olduğu hər hansı bir geyimi, guya əvvəlki qiyməti 100 manat imiş kimi, 70 faizlik endirim adı ilə 30 manata satır.

Üstəlik, "şok endirim" sözünü görüb mağazaya daxil olan alıcıların sayı artır. Gözəl-göyçək satıcı qızlar da (boş yerə xarici görünüşü gözəl olan gənc qızları belə yerlərdə işə cəlb etmirlər ki?) əzilib-büzülərək müştərini şirin dillə ələ alır, malı layiq olmadığı təriflərə qonaq edərək alıcının dükandan əliboş çıxmasına imkan vermirlər.

Hansısa mala baxmaq istəyən alıcıya isə təxminən belə sözlər deyilir- "Siz özünüz müasir, savadlı adama oxşayırsınız. Elə geyiminizdən hiss olunur ki, aristokrat adamsınız (?). Sizcə belə malı bundan aşağı qiymətə almaq olarmı?"

"Qoltuğuna qarpız verilmiş" müştəri isə bir az tərəddüd etsə belə, plastik manekenə oxşayan satıcı xanımın qızıl kimi vaxtını aldığından xəcalət çəkərək həmin malı almağa məcbur olur.

Hazırda "endirim" mağazalarında şıdırğı "geyindirim" prosesi gedir. Necə deyərlər, alan razı, satan razı, nəyə lazımdı qazı? Bazar olsun!

***Elçin Bayramlı***

# 2026-cı il - “Şəhərsalma və Memarlıq İli”

## Dövlət başçısının Sərəncamına əsasən, 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib

Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasında 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək . Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək Yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Bildiyimiz kimi, Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunmuşdu.Bu, dövlətçilik tariximizin öyrənilməsi, eyni zamanda, postmüharibə dövründə yeni milli ideoloji prioritetlərin böyük əhəmiyyət kəsb etməsi, qüdrətli Azərbaycanın dünya ölkələri sırasında özünə layiqli yer tutması, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin həm tarixi əhəmiyyətini, həm də mahiyyətini daha da ön plana çıxarmaq baxımından əvəzsiz rol oynamış oldu. Dövlətin suverenliyi, bir xalqın özünüidarəetmə, daxili və xarici siyasətində müstəqil qərar vermək hüququnu ifadə edən mühüm anlayışdır. Azərbaycanın Dövlət Suverenliyi Günü isə bu anlayışın ən mühüm rəmzi günlərindən biri kimi ölkənin tarixində əhəmiyyətli siyasi dönüş nöqtələrindən birini təşkil edir.

Azərbaycan 1990-cı illərin əvvəllərində, Sovet İttifaqının dağılmasından sonra öz müstəqilliyini bərpa etmək üçün mühüm addımlar atdı. Bununla yanaşı, Azərbaycan xalqının suverenlik arzusu və müstəqilliyə olan iradəsi, 1918-ci ildə qurulmuş və cəmi iki il davam edən Azərbaycan Xalq Cümhuriyyətindən irəli gələn ənənələrə söykənirdi. Cümhuriyyətin süqutundan sonra 70 ilə yaxın Sovet İttifaqının tərkibində olan Azərbaycan xalqı öz müstəqillik arzularını daim ürəyində yaşatmışdı.

1991-ci il oktyabrın 18-də qəbul edilən Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı ilə Azərbaycan rəsmən müstəqil dövlət statusunu bərpa etdi.

Dövlətimizin müstəqillik tarixinin ən mühüm hadisələrindən olan Əsas Qanun məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlanıb. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu vasitəsilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ölkəmizdə müasir cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilib. Belə ki, Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapıb. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən, hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir.




### MİLLİ MEMARLIĞIN PARLAQ NÜMUNƏSİ

44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər yalnız hərbi deyil, həm də hüquqi və siyasi baxımdan suverenlik dəyərlərinin möhkəmləndirilməsi anlamına gəlir. Xalqımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün, dövlət suverenliyinin və ölkənin bütün ərazilərində Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasının qürurverici təntənəsini yaşayır. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və iqtisadi inteqrasiya layihələri suveren dövlət anlayışının real təcəssümü olub.

Prezident İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi Azərbaycanın dövlətçilik ənənələrini daha da möhkəmləndirmək, xalqın hüquq və azadlıqlarının təmin olunmasına dair öhdəlikləri vurğulamaq məqsədi daşıyır. Bu qərar, həmçinin milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addımdır. Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır. Sərəncamda qeyd olunduğu kimi, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz - qədim və orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır. 900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Azərbaycan şəhərlərinin planlaşdırma quruluşunda və memarlıq tərzində artıq XIX əsrin ortalarına doğru müəyyən dəyişikliklər öz əksini tapmışdır. Sürətlə sənayeləşən Bakı şəhəri Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmini məhz həmin vaxtlardan almağa başlamışdır. Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq büruzə vermişdir. Ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələri yaradılmışdır. Mövcud möhtəşəm binalar sırasına daimi yeniləşmə rəmzi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələrinin və Ağ şəhər kompleksinin əlavə edilməsi ilə paytaxtın mənzərəsi daha da zənginləşmiş, regionların memarlıq siması xeyli dəyişərək yeni şəkil almışdır.

Bu gün də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluqlar təsbit edilməklə, memarlıq və şəhərsalma fəaliyyətinin prioritet istiqamətləri olaraq müəyyənləşdirilmişdir. Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir.

Tarixən formalaşan Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması problemləri ilə bağlı müxtəlif qərar və tədbirlər həyata keçirilmişdir. Şəki (196 8), Bakının İçərişəhər hissəsi, Şuşa və Ordubad (hər üçü 1977 ildə) şəhərləri, Lahıc qəs. (1980) Nardaran kəndi (1992), Qədim Şabran şəhəri (2002), Qax r. İlisu kəndi (2002), Ordubad r. Arpaçay vadisi (2002), Şabran rayonu Çıraqqala (2002), Şəki rayon Kiş kəndi (2003), Hacıqabul rayon Pir Hüseyn xanəgahı (2004) Azərbaycan memarlığı tarixi qoruğu elan edilmişdir. Qloballaşan dünyada şəhərsalma insan həyatının keyfiyyətini artırmaq, ətraf mühiti qorumaq və iqtisadi inkişafı təmin etmək baxımından əsas prioritetlərdən birinə çevrilib. Şəhərlər sürətlə böyüyür, lakin bu prosesin planlı və dayanıqlı olması gələcək nəsillərin rifahı üçün həyati əhəmiyyət daşıyır. Azərbaycan öz inkişaf strategiyalarında şəhərsalmanı insan mərkəzli, ekoloji və iqtisadi cəhətdən dayanıqlı şəkildə formalaşdırmağa xüsusi önəm verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən şəhərsalma proqramları, müasir infrastruktur layihələri və işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri bu sahədə Azərbaycanı regionun qabaqcıl ölkələrindən birinə çevirib.

### DAYANAQLI ŞƏHƏRLƏRİN GƏLƏCƏYİ

2026-cı il mayın 17-22-də Bakı yenidən dünyanın diqqətini özünə cəlb edəcək. Azərbaycan paytaxtında Birləşmiş Millətlər Təşkilatının (BMT) ən nüfuzlu tədbirlərindən biri - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) keçiriləcək. Məzmununa və əhatə dairəsinə görə bu Forum BMT-nin İqlim Dəyişikliyi üzrə Tərəflər Konfransından (COP) sonra ikinci ən böyük və strateji əhəmiyyətli qlobal platforma hesab olunur. Bu mühüm tədbirin Bakıda təşkili yalnız regional deyil, həm də qlobal miqyasda şəhərsalma, dayanıqlılıq və ətraf mühit sahələrində Azərbaycanın artan liderliyini nümayiş etdirir.

Bakı Forumunun əhəmiyyəti "UN-Habitat" və onun tərəfdaşları üçün bir neçə mühüm yubileylə sıx bağlıdır. Belə ki, həmin il bir sıra tarixi və rəmzi hadisələrin yubileyləri qeyd olunacaq. 1976-cı ildə keçirilmiş və "UN-Habitat"ın yaradılmasının əsasını qoymuş "Habitat I" konfransının 50 illiyi, 1996-cı ildə İstanbulda təşkil olunmuş "Habitat II" konfransının 30 illiyi, 2016-cı ildə qəbul edilmiş "Yeni Şəhər Gündəliyinin" 10 illiyi məhz 2026-cı ildə tamam olur. Bu yubileylər BMT-nin şəhərsalma sahəsindəki fəaliyyətinin mühüm mərhələlərini və qlobal şəhər inkişafı istiqamətində əldə olunan nailiyyətləri əks etdirir. Hər biri öz növbəsində şəhərsalmanın davamlı inkişafı, insanların həyat səviyyəsinin yüksəldilməsi və ətraf mühitin qorunması üçün strateji əhəmiyyət daşıyır.

WUF13-ün Bakıda keçirilməsi bu mühüm yubileylərin həm beynəlxalq səviyyədə qeyd olunması, həm də Azərbaycanın şəhərsalma sahəsindəki öncül rolunun dünyaya təqdim edilməsi baxımından əlamətdardır. Bu Forum ölkələrə ötən dövrdə əldə olunmuş təcrübələri müzakirə etmək və gələcək üçün yeni, innovativ həllər tapmaq imkanı yaradacaq. Azərbaycan üçün isə WUF13 həm ölkəmizin qlobal şəhərsalma gündəliyindəki mövqeyini möhkəmləndirmək, həm də regionda dayanıqlı və ağıllı şəhərsalma modellərini təşviq etmək üçün əvəzsiz platformadır. Ölkəmiz "UN-Habitat" təşkilatı ilə genişmiqyaslı əməkdaşlıq proqramı çərçivəsində insan mərkəzli, "ağıllı" və dayanıqlı şəhərlərin qurulması üçün qlobal bilik və təcrübənin formalaşdırılmasında da fəal iştirak edir. Belə ki, "UN-Habitat" Assambleyasının 2023-cü il iyunun 5-8-də keçirilmiş ikinci sessiyasında qəbul edilən qətnaməyə əsasən, "BMT-nin İnsan Mərkəzli Ağıllı Şəhərlər üzrə Beynəlxalq Təlimat" sənədinin hazırlanması məqsədilə beynəlxalq ekspertlər qrupu formalaşdırılıb. İyirmi dörd ölkədən 31 aparıcı mütəxəssisin yer aldığı bu qrupda Azərbaycanı iki nümayəndə təmsil edir. Bu fakt Azərbaycanın həmin sahədə həm praktiki, həm də intellektual töhfə verən ölkələrdən biri olduğunu bir daha nümayiş etdirir. Həmin beynəlxalq ekspertlər qrupunun birgə fəaliyyəti nəticəsində hazırlanmış "İnsan Mərkəzli Ağıllı Şəhərlər üzrə Beynəlxalq Təlimat" layihəsi 2024-cü il mayın 29-30-da Nayrobidə keçirilmiş "UN-Habitat" Assambleyasının növbəti iclasında təqdim olunaraq, üzv dövlətlər tərəfindən geniş şəkildə müzakirə edilib. Bu sənəd gələcəyin şəhərlərinin planlaşdırılması və idarə olunması sahəsində qlobal yol xəritəsi kimi çıxış etməyi hədəfləyir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Güclü dövlətin qarantı nədir?



Dövlətimiz dini, milli dəyərlərə hər zaman hörməti ilə seçilib. Axı hər bir millətin tarix boyunca inkişaf etmiş, zaman-zaman azacıq dəyişmiş həm dini, həm də milli dəyərləri var və hər bir xalqı millət kimi formalaşdıran da bu dəyərləridir. Bəzən fərdlərə görə dəyişən milli dəyər anlayışı çox zaman ümumi rahatlıq və vətən naminə birlikdəlik nümayiş etdirmək deməkdir. Çünki bir milləti var edən və daima dik saxlayan dini-milli-mənəvi dəyərləridir və dövlətimizin rəhbəri bunu bildiyi üçün hər zaman dini və milli dəyərlərimizə hörmətlə yanaşıb.

Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan həm dini, həm də milli-mənəvi dəyərlərimiz Azərbaycanın yüksək əxlaqi xüsusiyyətlərinin təcəssümüdür, bu dəyərlərimiz ən azı duz-çörək qədər hamımıza əzizdir. Dünya xalqları arasında öz qədim milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı var etdiyi, əsrlərdir yaşatdığı və gənc nəsillərə təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya mədəni irsində özünəməxsus yer tutur.

Uzun illər boyu aparılan tədqiqatlar, araşdırmalar qədim köklərə malik Azərbaycanın bir çox adətini əsrlər boyu qoruyub saxladığını üzə çıxarır, necə deyərlər atadan oğula, oğuldan da öz oğluna keçir. Azərbaycanın milli dəyərləri orta əsrlərdə formalaşan, o gündən bu günədək demək olar ki, kontekstdən çıxarılmayan, itirilməyən dəyərlərdir. Bizim "türk-islam dəyərləri" adlandırdığımız əxlaq qaydaları da millət olaraq formalaşmağımızda da əhəmiyyətli rola malikdir.

Dini dəyərlər, həmçinin milli-mənəvi dəyərlər və Azərbaycançılıq bizim hər birimiz üçün qiymətli və müqəddəs amillərdir. Xalqımız əsrlər boyu qoruduğu, tarixin bəzi dönəmlərindən talanaraq, məhv edilərək əlindən alınmağa çalışılan adətləri bu günədək gətirib çıxara bilib, bu da milli özünüdərkin formalaşmasına böyük kömək edib. Düzdür, tarix boyu bu sərvətimizə göz dikən yadellilər olub, amma bir millətin dəyəri onun qanında, genetikasındadır, o səbəbdən də milli-mənəvi dəyərlərimizi bizdən almaq cəhdləri həmişə boşa çıxıb, atalar demişkən, yel qayadan heç nə apara bilmir, tozdan başqa.

Məhz o səbəbdəndir ki, Azərbaycanda milli dövlətçilik və milli-mənəvi dəyərlər sıx daxili vəhdətdədir. Dövlət idarəsi, cəmiyyətin təşəkkülü də bu fondadır. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bu cür inkişaf konsepsiyası ola bilər. Ümummilli lider nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbir və təmkinlə həyata keçirdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!"- deyən ulu öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu.

Ulu Öndər deyirdi ki, Azərbaycançılığımızı, milli ideologiyamızı, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirməliyik. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ümummilli Lider yaxşı başa düşürdü ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir.

Ulu öndər Heydər Əliyev islamiyyətlə bağlı olan dini-mərasim və adətlərin də layiqincə keçirilməsi üçün hər cür şərait yaratmışdı. Çünki müasirlik milli kökü, adət-ənənəni, dini dəyərləri itirmək demək deyil, adət-ənənə, milli-mənəvi kökümüz elə müasirlik ənənələrinin fonunda da var ola bilir. Düzdür, zaman dəyişdikcə hər bir cəmiyyətə xas olan insanın psixologiyası, yaşam tərzi, milli dəyər anlayışı da müəyyən qədər dəyişə bilər. Nəsillərin dəyişilməsi ilə dəyərlərin mahiyyəti də dəyişir, amma Azərbaycan kimi milli kökünə bağlı olan ölkələrdə bu baş vermir. Bir ölkənin, müstəqil bir dövlətin ən böyük problemləri o zaman yaranır ki, o ölkədə mənəviyyat məsələsi arxa plana keçirilir. İqtisadi, siyasi məsələlər mənəviyyatdan önə keçirsə o ölkədə, o xalqda rifah halı yaxşılaşmaz, insanlar birlik olmaz. Müstəqilliyin əsas üstünlüyü mənəvi məsələlərə diqqət ayırmaqdır.

Ailə və ağsaqqallıq institutları, doğma dil, din, əxlaqi və mental dəyərlərə söykənən dövlətçilik sistemi əslində bizim milli-mənəvi sərvətimizdir, şansımızdır. Sarsılmaz dövlətlər bu dəyərlər üzərində yaranır və inkişaf edir. İndi o dövlətlər güclüdür ki, onlar tarixləri ilə bu günlərinin sintezini düzgün qura biliblər. Azərbaycan öz tarixi böyunca məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub, inkişaf edib və elə də davam edəcək.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Türk dünyasını birləşdirən yol




ABŞ, Ermənistan, Türkiyə və Azərbaycan hakimiyyəti "Tramp yolu" layihəsi ilə bağlı danışıqları intensivləşdirib. Konkret olaraq, Ankara gələn il İrəvanla sərhədini qismən açmağa hazırlaşır, Ermənistan və Azərbaycan hakimiyyəti isə ticarəti artırmağa davam edəcək. Ermənistan və Azərbaycanın ABŞ-dakı səfirləri Narek Mkrtçyan və Xəzər İbrahim ABŞ-da Trampın Yolları Təşəbbüsünün (TRIPP) müzakirəsində iştirak ediblər. Agentliyin məlumatına görə, dəyirmi masada Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistandan diplomatlar da iştirak ediblər. Onlar TRIPP-in infrastrukturun inkişafını necə sürətləndirə biləcəyini, regional əlaqəni gücləndirə biləcəyini və Yaxın Şərq dəhlizi boyunca ABŞ-ın davamlı iqtisadi mövcudluğunu necə möhkəmləndirə biləcəyini müzakirə etdilər.

ABŞ Dövlət Departamentinin sülhməramlılar üzrə xüsusi elçisi Vinay Çavelin qeyd etdiyi kimi, Vaşinqtonun yardımı ilə Azərbaycan və Ermənistan arasında avqust ayında əldə edilmiş razılaşma tarixi məqam yaradıb. "TRIPP tranzit marşrutunu ortaq rifahın mühərrikinə çevirməklə bu dünyanı necə dayanıqlı etməkdir. Amerika şirkətləri və kapitalı bu baxışda mühüm rol oynayır və bu administrasiya onların masa arxasında oturacaqlarını təmin etməyə sadiqdir", - Çavel qeyd edib.

Qeyd edək ki, Ermənistan və Azərbaycan artıq ticarətə başlayıb. Konkret olaraq, İrəvan əvvəlcə Bakıdan tranzitlə Rusiya və Qazaxıstandan taxıl alıb, daha sonra Azərbaycanın SOCAR şirkətindən 1300 ton Aİ-95 markalı benzini idxal edib. Tərəflər bu əməliyyatları birbaşa Vaşinqtonda paraflanmış sülh müqaviləsi ilə əlaqələndirirlər. Eyni zamanda, Türkiyə və Ermənistan hakimiyyətinin İstanbul və İrəvan arasında gündəlik birbaşa aviareyslərin açılması barədə razılığa gəldiyi bildirilib. Türkiyənin Ermənistanla Normallaşma Prosesi üzrə xüsusi elçisi, səfir Serdar Kılıç proqramın 11 mart 2026-cı ildə Türk Hava Yolları ilə sərnişin daşımağa başlayacağını açıqlayıb. Bu arada İrəvan və Ankara yükdaşımaları üçün sərhəd keçidlərini açmağa hazırlaşır. Xüsusilə, İğdır valisi Ercan Turan və Türkiyə Müdafiə Nazirliyinin nəzarəti altında Türkiyənin Alican sərhəd keçid məntəqəsində işlərə başlanılıb. "Yeşil Iğdır" xəbər verir ki, vilayətə bitişik Ermənistanın Marqara sərhəd keçid məntəqəsi artıq fəaliyyətdədir. Qəzetin yazdığına görə, İrəvanla Bakı arasında sülh müqaviləsinin paraflanması və bu yaxınlarda Ermənistana Azərbaycan yanacağının verilməsi Türkiyənin fəallaşmasına səbəb olub. Türkiyə rəsmiləri ilkin olaraq Marqara körpüsündən yalnız yük daşımaları üçün istifadə etmək niyyətindədirlər, sonra hər şey yaxşı olarsa, sərnişinlərin daşınmasını təmin etmək üçün. Ankara həmçinin "Tramp yolu"nun iqtisadi potensialını artırmaq üçün yol şəbəkəsini genişləndirməyə ümid edir.

Bununla belə, Ermənistan hakimiyyəti Moskvanı tamamilə bir kənara qoymur. Bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya prezidenti Vladimir Putinlə danışıqları zamanı bəyan etmişdi ki, İrəvanla Bakı arasında sülh Ermənistan-Rusiya münasibətləri üçün yeni imkanlar açmalıdır. Ən azı, o, müttəfiqinin Ermənistanı Azərbaycan və Türkiyə ilə birləşdirən dəmir yolu infrastrukturunun bərpasında iştirakını gözləyir. Putin bu xətlərin Rusiya Dəmir Yollarının törəmə şirkəti olan Cənubi Qafqaz Dəmir Yolunun (CQDY) (??) nəzarəti altında olduğunu xüsusi vurğulayıb. Lakin İrəvan hazırda TRIPP dəmir yolu xəttini Moskvanın iştirakı olmadan çəkməyi planlaşdırır.

Keçmiş Ermənistan parlamentinin üzvü və politoloq Mikael Zolyan isə deyib ki, gələn il Cənubi Qafqazda kommunikasiyaların bloklanması istiqamətində daha da irəliləyiş gözləyir. Lakin onun fikrincə, bu proses çox da sürətli olmayacaq. "İlk növbədə, 2025-ci ildə artıq gördüyümüz simvolik addımların davamını görəcəyik: buğda, yanacaq və sair tədarükü. Eyni zamanda, Türkiyə sərhədini Ermənistan diplomatik pasportu olanlara və üçüncü ölkə vətəndaşlarına açə bilər. İrəvan və Bakı 2026-cı ilin birinci yarısında sülh müqaviləsi imzalaya bilsələr, bu, həm də 2026-cı ilin birinci yarısında sərhədi tam bərpa edəcək. Ermənistan və Azərbaycan arasında tamhüquqlu ticarət əməkdaşlığının başlanmasına qədər", - Zolyan hesab edir. Bununla yanaşı, ekspert istisna etməyib ki, Gürcüstan hakimiyyəti öz ərazilərindən Ermənistan mallarının tranzitinə maneçilik törətməyə davam edə bilər, o cümlədən tarifləri artırmaqla qonşuları ilə yaxınlaşmanı sürətləndirə bilər.

## Rusiyanın dəhliz manipulyasiyası

Zəngəzur dəhlizi Orta Dəhlizin strateji seqmenti kimi Azərbaycanı Naxçıvanla, daha geniş kontekstdə isə Türkiyə və Mərkəzi Asiya ilə birləşdirən mühüm nəqliyyat-logistika xəttidir. Bu dəhliz təkcə iqtisadi deyil, həm də geosiyasi əhəmiyyət daşıyır. Layihənin reallaşması Cənubi Qafqazda güc balansını dəyişdirdiyi üçün Rusiya tərəfindən bir sıra açıq və gizli manevrlərlə üzləşir.

Rusiya postsovet məkanında əsas tranzit və təhlükəsizlik aktoru rolunu qorumağa çalışır. Zəngəzur dəhlizi isə Rusiyanın nəzarət etdiyi Şimal-Cənub və digər marşrutlara alternativ yaradır, Türkiyənin və Türk Dövlətləri Təşkilatının bölgədə təsirini artırır. Bu səbəbdən Rusiya layihəni tam regional inteqrasiyadan çox, nəzarət olunan dəhliz formatında görmək istəyir. "Təhlükəsizlik" bəhanəsi ilə prosesin ləngidilməsi də reallıqdır. Rusiya tez-tez Zəngəzur dəhlizi mövzusunda "regional sabitlik", "təhlükəsizlik riskləri", "sərhəd suverenliyi" kimi arqumentlər irəli sürür. Əslində isə bu dəhlizin tam açılmasını gecikdirmək, proses üzərində Rusiya FTX-sinin və ya sülhməramlı mexanizmlərin rolunu artırmaq məqsədi daşıya bilər.

Moskvanın Ermənistan üzərindən təsir mexanizmləri də çıxdaş edilməməlidir. Rusiya Ermənistanın enerji sistemi, silahlı qüvvələri, iqtisadi asılılığı üzərində ciddi təsirə malikdir. Bu təsirdən istifadə edərək Ermənistan daxilində ictimai narazılıq, müxalifət və radikal qruplar vasitəsilə daxili təzyiq yaradıla bilər ki, bu da Zəngəzur dəhlizinə qarşı müqaviməti gücləndirir. Rusiya tez-tez "dəhliz" sözünün əvəzinə "kommunikasiyaların açılması", "nəqliyyat əlaqələrinin bərpası" ifadələrindən istifadə edir. Bu yanaşma dəhlizin beynəlxalq tranzit statusunu zəifləmək, Azərbaycanın maneəsiz keçid tələblərini yumşaltmaq məqsədi güdür. Rusiya Zəngəzur dəhlizinə alternativ kimi İran üzərindən keçən marşrutları "3+3" formatı çərçivəsində regional bloklaşmanı irəli sürür. Bu da Orta Dəhlizin Avropa üçün cəlbediciliyini azaltmağa Türkiyə-Azərbaycan xəttinin strateji üstünlüyünü balanslaşdırmağa xidmət edir.

Rusiya mediası və ona bağlı platformalar vasitəsilə "Zəngəzur dəhlizi yeni müharibəyə səbəb ola bilər", "Ermənistanın suverenliyi pozulur" kimi tezislər yayılır. Bu informasiya mühiti beynəlxalq ictimai rəyi çaşdırmağa investisiya risklərini şişirtməyə hesablanıb. Rusiya Zəngəzur dəhlizinə birbaşa qarşı çıxmasa da, prosesə nəzarət etmək və sürəti azaltmaq strategiyası yürüdür. Bunun əsas səbəbi regional tranzit rolunun zəifləməsi Türkiyə və Qərb təsirinin artması Türk dünyasının inteqrasiyasıdır. Azərbaycan üçün əsas vəzifə isə layihəni beynəlxalq hüquq çərçivəsində, Türkiyə və Avropa ilə koordinasiyalı, iqtisadi əsaslı və təhlükəsizlik balansını qoruyaraq irəlilətməkdir.

**V.VƏLİYEV**

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Özəl məktəblərdə təhsil haqları niyə fərqlənir?



*QİYMƏTLƏR - ARAŞDIRMA*

Son illərdə Azərbaycanda özəl lisey və məktəblərə maraq artmaqdadır. Valideynlər daha keyfiyyətli təhsil, fərdi yanaşma və beynəlxalq imkanlar ümidi ilə övladlarını özəl təhsil müəssisələrinə yönəldirlər. Lakin bu seçimlə yanaşı, ən çox müzakirə olunan məsələlərdən biri də illik təhsil haqlarının yüksəkliyi və məktəblər arasında ciddi fərqlərin mövcudluğudur. Bəzi özəl məktəblərdə illik ödənişlər minlərlə manatla ölçüldüyü halda, digərlərində bu məbləğ on minlərlə manata qədər yüksəlir. Bu fərqlər nədən qaynaqlanır və valideynlər seçim edərkən nələrə diqqət etməlidirlər? SİA mövzu ilə bağlı araşdırma edib.

Özəl məktəblərdə təhsil haqları bir çox faktordan asılı olaraq dəyişir:

-tədris dili (Azərbaycan, rus, ingilis və beynəlxalq proqramlar),

-məktəbin nüfuzu və beynəlxalq akkreditasiya,

-təhsil səviyyəsi (ibtidai, orta, tam orta),

-əlavə xidmətlər (nahar, nəqliyyat, dərnəklər),

-məktəbin yerləşdiyi ərazi və s.

Ümumilikdə özəl məktəblərdə illik təhsil haqları təxminən 2 500 manatdan başlayaraq 55 000+ manata qədər dəyişir.

Bakı Atatürk Liseyi -2 500 - 4 500 M

Simurq Liseyi -2 625 - 5 250 M ~2 890 - 3940 M

Western School ~6 000 M

Hədəf Liseyi ~5 000 - 9 000 M ~5 000 - 9000 M

Erudit Liseyi ~6 500 M

Kaspi Liseyi ~8 350 - 9 000 M ~8 850 - 9050 M ~8 950 - 9 450 M

Qiymətlər orta səviyyədədir, ibtidai və yuxarı siniflərə görə dəyişir.

Orta və daha yüksək haqlı məktəblər

Bu kateqoriyada adətən xarici proqramlar (Cambridge, IB, A-Level) və ingilis dili əsas tədrisdə olur:

Məktəb İllik təhsil haqqı (təxmini)

Landau School ~6 300 - 8 700 M

Yaşam Beynəlxalq Məktəbi ~6 560 - 8 670 M

Bakı Beynəlxalq Təhsil Kompleksi ~8 000 - 9 000 M

Ada School ~8 400 - 15 000 M

Bakı İstanbul Liseyi ~9 000 - 10 000 M

Evrika Liseyi ~9 000 - 14 500 M

Beynəlxalq Maarif Məktəbləri ~9 200 - 12 300 M

İdrak Liseyi ~10 000 - 16 500 M

Dünya Məktəbi ~15 000 - 17 500 M

Britaniya Məktəbi ~12 000 - 14 000 M

Ən yüksək haqlı məktəblər

Bu məktəblər beynəlxalq səviyyəli proqramlar, yüksək standartlı tədris və əlavə xidmətləri ilə fərqlənir:

Oxbridge Academy Baku ~15 640 - 24 820 M

Bakı Oxford Məktəbi ~17 000 - 20 500 M

Azərbaycan Britaniya Kolleci ~12 000 - 20 000 M

Azərbaycan Beynəlxalq Məktəbi (TİSA) ~54 000 - 56 000 M

Qiymətləri nə müəyyən edir?

Özəl məktəblərdə təhsil haqları aşağıdakı amillərdən asılı olaraq dəyişir:

1. Tədris dili və proqram

İngilis və ya beynəlxalq proqramlar (IB, Cambridge, A-Level) adətən daha yüksək haqq tələb edir.

2. Məktəbin infrastruktur və xidmətləri

Müasir laboratoriyalar, idman zalları, dil otaqları, əlavə dərnəklər, psixoloji dəstək və klub fəaliyyətləri qiymətə daxildir.

3. Müəllim heyəti

Xarici müəllimlər və yüksək peşəkar personal əməkhaqları təhsilhaqqına təsir edir.

4. Məktəbin yerləşməsi

Mərkəzə yaxın və prestijli rayonlarda yerləşən məktəblərdə qiymətlər daha yüksək olur.

2025/26-cı tədris ili üçün vəziyyət

-Əksər məktəblər illik haqları artırıb (300-1000 M daha çox).

-Bazarda əlavə xidmətlər, xarici proqramlar və beynəlxalq akkreditasiya artdıqca qiymətlər də yüksəlir. Təhsil haqlarını yalnız məbləğlə deyil, təhsilin keyfiyyəti və proqramla müqayisə edin. Müxtəlif məktəblərin açıq günlərində iştirak edərək proqram və xidmət fərqlərini öyrənin. Bəzi məktəblər endirim və qardaş-bacı güzəştləri təklif edir - soruşmaq faydalıdır.

***Ayşən Vəli***

# Ronaldo bu adada 8 milyon avroya iki villa aldı...



Portuqaliya millisinin və Səudiyyə Ərəbistanının ”Əl-Nəsr” klubunun hücumçusu Kriştiano Ronaldo ümumi dəyəri 8 milyon avro olan iki villa alıb. QOL.az ”Saudi Gazette”yə istinadən xəbər verir ki, bu mülklər Qırmızı dənizdəki Nucuma adasında yerləşir. 40 yaşlı futbolçu bununla bağlı fikirlərini də bölüşüb: ”Ada hər tərəfdən həqiqətən inanılmazdır. İlk səfərimizdən Corcina və mən adaya və onun heyrətamiz təbii gözəlliyinə dərin bir bağlılıq hiss etdik. Bu, sülh və əmin-amanlıq tapdığımız bir yerdir”.



# TƏBRİK EDİRİK!



Balaca Məryəmin 3 yaşı tamam olur. Bu gözəl gün münasibətlə anası Arzu, atası Azər, babaları Yafət və Vidadi, nənələri Sevda və Cəmilə, bütün doğmaları balaca Məryəmi ürəkdən təbrik edir, ona xoşbəxtlik dolu gözəl günlər arzulayırlar!


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**